# Dəyərli tədqiqat

İstər Cənubi, istərsə də Şimali Azərbaycan ədəbiyyatının tədqiqi ilə bağlı hər hansı bir ədəbiyyatşünaslıq, yaxud ədəbi-tənqidi material ədəbi-mədəni hadisədir. Uzun illərdir müəyyən fasilələrlə Cənubda baş verən tarixi hadisələr və qanlı məğlubiyyətlər öz əksini poetik şəkildə ədəbi nümunələrdə tapdı. Cənubi Azərbaycanda "Türkmənçay" və "Gülüstan" müqavilələrindən əvvəl də, sonralar da islam ideyaları, xalqın mənəvi tərbiyəsinə, adət-ənənələrə, sonralar azadlığa fədailərin həyat və fəaliyyətlərinə aid güclü bir ədəbiyyat yarandı. Bu ədəbi nümunələr Cənubi Azərbaycan, bütövlükdə İran mədəniyyətinin formalaşmasında böyük rol oynadı. Sadəcə bir nümunə ilə fikrimizi əsaslandırsaq, görərik ki, təkcə XX əsr İran ədəbiyyatından M.Şəhriyarın yaradıcılığı çıxarılsa, həmin dövr İran ədəbiyyatında bir boşluq yaranır. İki əsrdən artıqdır ki, Azərbaycan xalqının milli şüuru o dərəcədə inkişaf etmişdir ki, nəinki öz mənafeyini müdafiə etmək gücündədir, eyni zamanda müxtəlif xalqların tolerantlıq və multikultural fikir və baxışlarına, dini-əxlaqi əqidə və milli mənlik şüuruna, onlarla sağlam ünsiyyət prosesinə, vətənçilik məfkurəsinə, bəşəri dəyərlərdən faydalanmasına və mədəni inteqrasiya prosesinə hörmətlə yanaşır. Tarix XXI əsrin ilk onilliklərini göstərir. Dünya yeni-yeni multikultural cəmiyyəti formalaşmasını dəstəkləyir. Ancaq Azərbaycanın dahi şairi N.Gəncəvi hələ XII əsrdə öz poemalarında çoxsaylı əcnəbi-dili, dini, irqi ayrı olan obraz yaratmış, onların da hər birinin milliyyətinə, işinə və qabiliyyətinə uyğun uğurlu poetik münasibət göstərmişdir. Cənubi Azərbaycan xalqı 200 ildir ki, farslarla iç-içə yaşayır, düşünür və yazıb-yaradır. Ədəbi mühit də bu nüansa həssas yanaşır və vaxtında qiymətini verir. Həm klassik, həm də yeni dövr Cənubi Azərbaycan ədəbiyyatı və onun tarixi ardıcıl olaraq ədəbiyyatşünaslıq materiallarında öz əksini tapır. Tədqiqatçıar bu ənənələrin möhkəmləndirilməsi, dünyaya tanıdılması məqsədilə istiqamətləndirilmiş uğurlu ədəbi siyasət həyata keçirir. Bu ədəbi-mədəni prosesdə Cənubi Azərbaycan ədəbiyyatının yorulmaz tədqiqatçısı Mahmizər Mehdibəyovanın da böyük əməyi var. O, Cənubi Azərbaycan ədəbiyyatının yaranması, təşəkkülü və inkişafının müxtəlif mərhələlərinə aid xeyli sayda elmi əsərlər yazmış, qiymətli mülahizələr irəli sürmüşdür. Onun tədqiqatlarına cəlb olunan yazarların əsərləri, ayrı-ayrı hekayə, povest və romanların ideya-bədii və sənətkarlıq xüsusiyyətləri güclü tədqiqatçı qələmi ilə təhlil obyektinə çevrilmiş və qiymətləndirilmişdir. Bu da əsərlərinin oxunması və müvəffəqiyyətinin təmin olunması üçün əsas amilə çevrilmişdir. Onun 2001-ci ildə nəşr olunan "Zeynalabdin Marağalının "İbrahim bəyin səyahətnaməsi" romanı" adlı monoqrafiyası, Bakıda və İranda nəşr olunan digər əsərləri alimin Cənubi Azərbaycan ədəbiyyatı ilə bağlı qənaətlərinin müəyyən hissəsini əhatə edir. Alim uzun illər Azərbaycan Müəllimlər İnstitutunun auditoriyalarında oxuduğu mühazirələr, keçdiyi seminar məşğələlərində də cənub ədəbiyyatı ilə bağlı mülahizələrini tələbə və həmkarları ilə bölüşmüş, müəyyən nəticələrə gəlmişdi. Bütün bunlar o deməkdir ki, alimlərimizin bu sahədə apardığı tədqiqatlar milli şüurun yeni üfüqlərə qalxmasına zəmin yaradır, elmi fikrin sabahına can atmaq üçün gənclərə istiqamət verir. Mirzə İbrahimov kimi nəhəngdən yadigar qalan, professor Teymur Əhmədov kimi güclü bir qələm sahibinin rəhbərlik etdiyi "Cənubi Azərbaycan ədəbiyyatı" şöbəsində yaranan elmi əsərlər bu şöbəni elmləri ilə yüksək səviyyəyə qaldıran həmin şəxslərə ardıcıllarının minnətdarlıq simvoludur.

Mahmizər Mehdibəyova 2007-ci ildə Cənubi Azərbaycan mühacirət nəsrini elmi-tədqiqat əsəri üçün obyekt seçmiş, onun 200 səhifəlik "Cənubi Azərbaycan mühacirət nəsri (1947-1990-cı illər)" kitabı ərsəyə gəlmişdir. Monoqrafiyada göstərilən ədəbiyyatın yaranması, təşəkkülü və inkişaf mərhələləri araşdırılır. Tədqiqata cəlb olunan kiçik və böyük həcmli mühacirət nəsri nümunələri təhlilə cəlb olunmuş ideya-bədii və sənətkarlıq xüsusiyyətəri tədqiqatçı qələmi ilə qiymətləndirilmişdir. Elmi redaktor professor Teymur Əhmədov monoqrafiyanı elmimiz üçün uğurlu bir əsər hesab edir. Mahmizər xanım əsərini Həmzə Fəthi Xoşginabinin hekayələrinin təhlili ilə başlamış, çağdaş təfəkkür işığında inandırıcı və məntiqi şəkildə araşdırmağa çalışmışdır. Ardınca Abbas Pənahi Makulunun, Əli Tudənin nəsr yaradıcılığının elmi mənzərəsini vermişdir. Güney Azərbaycan hekayə yazarlarından Firuz Sadıqzadə, Məhəmmədrza Afiyət, Söhrab Tahir, Həmid Məmmədzadə, Məmməd Dadaşzadənin əsərlərini inqilabi-romantika və sosialist realizmi gerçəkliyinin dərki və bədii əksi baxımından təhlil etmiş və bu prosesi ağrılı bir yol kimi qiymətləndirmişdir. Tədqiqatçı alim Sabir Əmirov yazır: "Mahmizər xanım çox gərəkli və mühüm bir mövzunun təhlilinə qol qoymuşdur. Tədqiqat prosesində müəllifin uğurlu addımları yetərincədir".

Cənubi Azərbaycan xalqı haqqında həmişə "Saf və əxlaqi ideyaları olan bir xalq" ifadəsi işlənilir. Belə bir xalqın da uğurlu ədəbiyyat və mədəniyyətinin olması labüddür. Bu irsin genişlənməsi və formalaşmasında Mahmizər xanım kimi alimlərin də əməyi var. Mahmizər Mehdibəyovanın 2019-cu ildə nəşr olunan "Cənubi Azərbaycan nəsri: dünən və bu gün" əsəri Azərbaycan ədəbiyyatı mütəxəssisləri, filologiya fakültəsinin tələbələri və geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur. Kitabda Azərbaycan xalqının tarixində qara ləkə kimi boy göstərən parçalanmış Vətənimizin cənubunda cərəyan edən ədəbi proses və ona tədqiqatçı münasibəti öz əksini tapıb. Cənubi Azərbaycan ədəbiyyatı uzun illərdir tədqiq olunur, onun ümumi və fərqli xüsusiyyətləri öyrənilir. Kitabda Cənub nəsrinin təşəkkül tarixi, inkişafı və çağdaş durumu təhlil obyektinə çevrilib. Zeynalabdin Marağalı, Əbdürrəhim Talıbov, M. Rüşdiyyə, Xoşginabi, P.Makulu, Səbahi kimi tanınan yazarlarla yanaşı, müasir Cənubi Azərbaycan yazarlarının da yaradıcılığının qiymətləndirilməsi yaxşı haldır. Müəllif yazır:"...hesab edirəm ki, bu kitabda sistemli şəkildə təqdim etdiyim yeni fikir və qənaətlərim Cənubi Azərbaycan ədəbiyyatı, xüsusən də nəsri ilə maraqlanan oxucularımız üçün də heç də bunlardan az qiymətli olmayacaq...".

Kitabın əvvəlində Cənub nəsrinin tarixi və çağdaş durumuna ümumi bir nəzər yetirilmiş, uzun illərdir Azərbaycanda vahid ədəbi prosesin müəyyən mənada bölünməsinə münasibət bildirilmişdir. Sonra yeni İran nəsrinin formalaşmasında Azərbaycan realist nəsrinin nümayəndələrinin təsiri, buna rus və Avropa alimlərinin münasibəti faktlarla öz əksini tapmışdır. M.F.Axundov yaradıcılığının bu sahədə müstəsna rolu qiymətləndirilmişdir. M.F.Axundovun əsərlərinin fars dilinə tərcüməsi, Londonda ingilis dilinə tərcüməsi (Qaracadağinin tərcüməsində - S.Ə.), bu əsərlərin fars danışıq dilinin öyrənilməsində vəsait kimi tövsiyə olunması və s. məsələlərin verilməsi müəllifin öz işini ciddiyə almasını əsaslandırır. Müəllifin rus tədqiqatçısı Komissarovdan gətirdiyi sitat qənaətbəxşdir: "Yeni İran nəsrinin formalaşması prosesində... M.F.Axundovun müstəsna rolu olmuşdur... M.F.Axundovun əsərləri ilə İran ziyalıları əvvəlcə Azərbaycan dilində tanış olmuş, ancaq tezliklə bu əsərlər İran ictimai xadimi M.C.Qaracadaği tərəfindən fars dilinə tərcümə edilərək 1874 cü ildə Tehranda Litoqrafiya üsulu ilə nəşr edilmişdir".

Doğrudan da, həmin dövrdən sonra Cənubda Axundovun təsiri ilə yazıçılar yetişdi və bunun İran ədəbiyyatının inkişafına böyük təsiri oldu. Mahmizər xanım o zaman yaranan ədəbi nümunələrin dilinin sadəliyi, üsul və ifadələrin rəngarəngliyi, mövzuların həyatiliyini xüsusi olaraq qeyd edir, bunu İran nəsrində tənqidi realizmin meydana çıxması kimi qiymətləndirir. Bədii əsərlərdə ictimai qüsurların əks etdirilməsini əsas olaraq göstərir. Sonra müəllif Cənubi Azərbaycan nəsrinin janr tipologiyasını nəzərdən keçirir. Cənubi Azərbaycan ədəbiyyatında yaranan kiçik hekayə, böyük hekayə (povest -S.Ə.), roman janrlarının yaranması, onların yaranmasında folklor qəliblərinin (mif, nağıl, dastan kimi protonəsrlər - S.Ə.) böyük əhəmiyyətindən bəhs edir.

Klassik Azərbaycan bədii nəsrinin ilk örnəyi "Kitabi-Dədə Qorqud" kimi tarixi abidəni, X.Şirvaninin "Töhfətül-İraqeyn" poemasının dibaçəsini və məktublarını yada salan müəllif müasir Cənubi Azərbaycan nəsrinin keçdiyi tarixi inkişaf yoluna nəzər yetirmiş, bu əsərləri nəsr tarixini öyrənməkdə sanballı mənbə kimi qiymətləndirmişdir. Əbu Bəkr əl-Ustadın əsərlərini, Nizaminin "Sirlər xəzinəsi" və "Yeddi gözəl" poemalarındakı mənzum hekayələri, "Munisnamə" dəki mənsur hekayələri o dövrün epik ədəbiyyatının ən gözəl nümunələri hesab edən tədqiqatçı müxtəlif xarakterli əhvalatların fonunda insanın həyatda öz yerini necə tapmasına diqqət çəkmişdir. Müəllif M.Füzulinin "Hədiqətüs-şüəda" əsərinin orta dövr nəsrinin kamil örnəyi kimi layiqli bir yer tutduğunu qeyd edir.




Kitabda Məhəmmədin "Şəhriyar" dastanı, XIX yüzillikdə qələmə alınmış "Koroğlu" dastanının Tiflis nüsxəsi, M.F.Axundovun "Aldanmış kəvakib" povesti Azərbaycan bədii nəsrinin Şərq və orta əsrlər kontekstindən çıxarılaraq Qərb nəsrinə-nəsrin yeni inkişaf yoluna qovuşduran ədəbi nümunələr kimi göstərilir.

Müəllif Cənubi Azərbaycan nəsr dilinin formalaşmasında C.Məmmədquluzadə və "Molla Nəsrəddin" ədəbi məktəbinin rolunu yüksək qiymətləndirir, oxucuda ətraflı təsəvvür yaradır. Satira məktəbi haqqında elmi mülahizələrin çoxluğuna baxmayaraq, Cənubi Azərbaycanla bağlı fikir formalaşdırır. Cənubi Azərbaycan nəsrinin formalaşmasında İran hüdudları xaricində - Şimali Azərbaycanda mövcud olan ədəbi mühit və baş verən milli dirçəliş prosesləri böyük rol oynamışdır. 2-ci bir təsir transformatoru kimi İran və Rusiya ədəbi-mədəni əlaqələrinin qiymətləndirilməsi lazımdır. Cənubi Azərbaycan ədəbi mühitinin formalaşmasında böyük əməyi olan, 1946-cı ilin baharında Təbriz Dövlət Filarmoniyasının müdiri təyin olunan Əli Tudə Cənubi Azərbaycan, ayrılıqda götürülmüş Təbriz ədəbi mühitinin formalaşmasında "Azərbaycan" qəzetinin rolunu yüksək qiymətləndirir və yazırdı ki, bu qəzet fəhlə ilə də, kəndli ilə də, ziyalı ilə də doğma Azərbaycan dilində, özü də şirin-şirin danışırdı. Tədqiqatçı həmin dövr nəsr yaradıcılığına diqqət çəkir, "Azərbaycan" qəzeti ilə M.İbrahimovun "Əjdəroğlu" imzası ilə hissə-hissə nəşr olunan "Nakam məhəbbət" povestinin təbrizlilər tərəfindən sevilərək oxunduğundan bəhs edir. Mahmizər xanım göstərir ki, bu əsər neçə-neçə nəsr nümunələrinin yaranmasına səbəb oldu. Bu da o deməkdir ki, az məzmunla böyük ideyalar ortaya qoyan yazıçılar nəsr məktəbinin yaranmasına yol açdı. Bəylər Haili, Ərməğan, İslam Sərrafi, Səbai, Q.Kəndli kimi yazarların da adlarını hörmətlə çəkən M.Mehdibəyova onların M.Cəlil, Ə.Haqverdiyev, M.Cəlal zirvəsinə çatmasalar da, nəsrin inkişafında rolları olduqları qənaətindədir. H.F.Xoşginabi və M.Pənahinin bu missiyanı sonradan həyata keçirdiyini (mühacir kimi - S.Ə.) qeyd edən alim milli azadlıq hərəkatının tarixinə və milli qəhrəmanların həyat və mübarizəsinə həsr olunmuş nəsr əsərlərinin təhlilinə daha isti münasibət bəsləmişdir. Məsələn, Qulaməli Səmsamın "Sərdari-Milli haqqında xatirələr" adlı yazısını xalq hərəkatının Məşrutə inqilabının bədii rakursdan açılması baxımından daha maraqlı hesab edir. Səməd Behrəngi, Nasir Mənzuri, Təbrizli Məmmədrza və s. nəsr yaradıcılığına müraciət edən müəllif o nəticəyə gəlir ki, nəsr daxil olmaqla ədəbiyyat ümumi xalqın mənafeyinə xidmət edirsə, əsl qiymətini alır. M.F.Axundovun cənublu müasirlərinə göndərdiyi məktublar belə qiymətli mənbələrdəndir ki, tədqiqatçı bu məsələyə də xüsusi diqqət çəkmişdir. M.Mehdibəyova böyük bir məramın öhdəsindən gəlməyə çalışmış, qiymətli təhlillər aparmış, mülahizələr söyləmişdir. Fikirlərini böyük mütəfəkkirlərin **ədəbiyyat haqqında aforizmləri ilə bəzəyən və əsaslandıran müəllifin "Cənubi Azərbaycan nəsri: dünən və bu gün" əsəri Cənubi Azərbaycan nəsrini öyrənmək və qiymətləndirmək baxımından çox faydalıdır.**

**Sakibə ƏLƏSGƏROVA,**
**filologiya üzrə fəlsəfə doktoru,**
**Əməkdar müəllim.**